**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№354/1** **14 mart 2023-cü il**

**"Haqsız rəqabətə qarşı mübarizə üzrə komitənin hüquqi əsasları, məqsədi, vəzifə və səlahiyyətləri barədə Təlimat" haqqında**

Auditorlar Palatasının 2023-cü il üzrə iş planının 1.2-ci "Auditor fəaliyyəti ilə əlaqədar təlimatlar, tövsiyələr, metodik göstəriş və şərhlərin hazırlanması" bəndinin 1.2.5-ci "Haqsız rəqabətə qarşı mübarizə üzrə komitənin hüquqi əsasları, məqsədi, vəzifə və səlahiyyətləri barədə Təlimatın hazırlanması" yarımbəndinə uyğun olaraq və auditor fəaliyyəti sahəsində haqsız rəqabətin aradan qaldırılması istiqamətində xarici təcrübədən istifadə edilməklə hazırlanmış "Haqsız rəqabətə qarşı mübarizə üzrə komitənin hüquqi əsasları, məqsədi, vəzifə və səlahiyyətləri barədə Təlimat"ın layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Haqsız rəqabətə qarşı mübarizə üzrə komitənin hüquqi əsasları, məqsədi, vəzifə və səlahiyyətləri barədə Təlimat" təsdiq edilsin (əlavə olunur).
2. Auditorlar Palatasının Haqsız rəqabətə qarşı mübarizə idarəsinə (R.Cəfərli), Palatanın Şurası yanında Haqsız rəqabətə qarşı mübarizə üzrə komitəyə (Q.Əhmədov) və Etika, mübahisələr və intizam komissiyasına (K.Hüseynov) tapşırılsın ki, təsdiq edilmiş Təlimata uyğun olaraq Palatanın üzvləri tərəfindən auditor xidməti zamanı haqsız rəqabət hallarının müntəzəm olaraq operativ araşdırılmasını və müvafiq intizam məsuliyyətinin tətbiq olunmasına dair təkliflərin hazırlanıb təqdim olunmasını təmin etsinlər.
3. Auditorlar Palatasının struktur bölmələrinin, Palatanın Şurası yanında müvafiq komitələrin və komissiyaların, habelə Palatanın üzvü olan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara tapşırılsın ki, "Haqsız rəqabətə qarşı mübarizə üzrə komitənin hüquqi əsasları, məqsədi, vəzifə və səlahiyyətləri barədə Təlimat"ın tələblərindən irəli gələn vəzifələrin icrasını təmin etsinlər.
4. Haqsız rəqabətə qarşı mübarizə idarəsinə (R.Cəfərli) tapşırılsın ki, bir həftə müddətində "Haqsız rəqabətə qarşı mübarizə üzrə komitənin hüquqi əsasları, məqsədi, vəzifə və səlahiyyətləri barədə Təlimat"ın Auditorlar Palatasının üzvlərinə çatdırılması təmin edilsin.
5. Sədrin müşaviri F.Qarayevə və Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin rəisi Q.Əhmədova tapşırılsın ki, bir həftə müddətində bu qərarın və "Haqsız rəqabətə qarşı mübarizə üzrə komitənin hüquqi əsasları, məqsədi, vəzifə və səlahiyyətləri barədə Təlimat"ın mətnlərinin Palatanın internet səhifəsində və "Auditorun şəxsi kabineti" sistemində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**